Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin 19 avqust 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş "Fəaliyyət Planı"nın 5-ci və 17-ci bəndlərinin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. 2010-cu ildə təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində "Təhsildə İnternet texnologiyaları" və "Müasir məktəbdə elektron resursları" istiqamətləri üzrə "Elektron təhsil" Respublika müsabiqəsi keçirilsin.

2. "Elektron təhsil" Respublika müsabiqəsinin əsasnaməsi, müsabiqənin Təşkilat Komitəsinin və Münsiflər Heyətinin tərkibi təsdiq edilsin. (1, 2, 3 saylı əlavələr).

3. Təşkilat Komitəsi müsabiqənin keçirilmə müddətini, mərhələlərinin müəyyən edilməsini və əsasnamədə nəzərdə tutulmuş digər tədbirlərin lazımi səviyyədə həyata keçirilməsini təmin etsin.

4. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə tapşırılsın (S.Məmmədov):

4.1. Əsasnamədə nəzərdə tutulmuş tədbirlərin vaxtında və lazımi səviyyədə həyata keçirilməsini təmin etsin.

4.2. ən yaxşı layihələr haqqında geniş məlumatların Təhsil portalında yerləşdirilməsini təmin etsin.

5. "Elektron təhsil" Respublika müsabiqəsinin keçirilməsi üçün xərclər smetası təsdiq edilsin və əmrə əlavə olunsun.

6. Nazirliyin İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) müsabiqənin bütün mərhələlərinin gedişinin videolentə alınmasını, əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının***
***təhsil naziri***
***14 aprel 2010-cu il***